# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması Qaydası”nın təsdiq edilməsi haqqında**

“Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 24 may 2024-cü il

№ 283

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 24 may
tarixli 283 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması

# QAYDASI

1. Bu Qayda "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə əsasən hazırlanmışdır və standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması qaydasını müəyyən edir.

2. Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılmasının məqsədi standartlaşdırma üzrə yeni normativ sənədin qəbulundan, mövcud olanların təkmilləşdirilməsinə və ya ləğvinə zərurətin olmasından, onların aktuallığının və tətbiqinin səmərəliliyinin müəyyən edilməsindən ibarətdir. Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılmasına aşağıdakılar daxildir:

2.1. standartlaşdırma üzrə normativ sənədlərin elmi-texniki, sosial-iqtisadi və hüquqi səviyyəsinin təhlili;

2.2. standartlaşdırma üzrə normativ sənədlərin texniki reqlamentlərə uyğunluğunun təhlili;

2.3. iqtisadiyyatın müxtəlif sahələrinin standartlaşdırma üzrə normativ sənədlərlə təmin olunmasının təhlili.

3. Standartlaşdırmanın aşağıda qeyd olunan subyektləri standartlaşdırma üzrə normativ sənədlərin yoxlanılmasını hər il həyata keçirməlidirlər:

3.1. milli standartlaşdırma qurumu;

3.2. standartlaşdırma üzrə texniki komitələr;

3.3. səlahiyyətinə standartlaşdırma obyektləri daxil olan dövlət orqanları (qurumları).

4. Standartlaşdırma sahəsində aşağıda qeyd olunan normativ sənədlər yoxlanılır:

4.1. dövlət standartları, o cümlədən ilkin dövlət standartları;

4.2. Azərbaycan Respublikasında tətbiq edilən beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartları;

4.3. texniki şərtlər.

5. Bu Qaydanın 3-cü hissəsində nəzərdə tutulan standartlaşdırmanın subyektləri özünün fəaliyyət sahəsinə aid olan standartlaşdırma üzrə normativ sənədlərin yoxlanılmasına hər il fevral ayının 1-də başlayır və sentyabr ayının 15-dək yoxlamanın nəticələri ilə əlaqədar əsaslandırılmış təklifləri müvafiq tədbirlərin görülməsi üçün milli standartlaşdırma qurumuna göndərirlər.

6. Milli standartlaşdırma qurumu standartlaşdırma üzrə normativ sənədlərin yoxlanılmasının nəticələrinə dair təkliflərə onların daxil olduğu tarixdən 30 (otuz) iş günü müddətində baxır.

7. Milli standartlaşdırma qurumu yoxlamanın nəticələrinə dair noyabr ayının 1-dək standartlaşdırma sahəsində normativ sənədlərdə dəyişiklik edilməsi, ləğv olunması və ya yeni standartlaşdırma üzrə normativ sənədin hazırlanması ilə bağlı əsaslandırılmış təklifləri özündə əks etdirən hesabat hazırlayır.

8. Hazırlanmış hesabat 3 (üç) iş günü müddətində münasibət bildirilməsi üçün texniki komitələrə və aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilir.

9. Texniki komitələr və aidiyyəti dövlət orqanları (qurumları) daxil olmuş hesabata 10 (on) iş günü müddətində münasibət bildirməlidirlər. Bu müddət ərzində münasibət bildirilmədikdə hesabat razılaşdırılmış hesab olunur.

10. Milli standartlaşdırma qurumu hesabata bildirilmiş münasibətlər əsasında 5 (beş) iş günü müddətində aşağıdakı qərarlardan birini və ya bir neçəsini qəbul edə bilər:

10.1. yoxlamanın nəticəsində yeni dövlət standartlarının qəbul edilməsinə zərurət yarandıqda, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi Qaydası"na uyğun olaraq milli standartlaşdırma proqramına daxil edilməsinə dair;

10.2. mövcud dövlət standartlarına, o cümlədən ilkin dövlət standartlarında dəyişiklik edilməsinə zərurət yarandıqda, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişikliklər edilməsi və nəşri Qaydaları"nın 5-ci hissəsinə uyğun iş aparılmasına dair;

10.3. yoxlamanın nəticəsində beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının qəbul edilməsinə zərurət yarandıqda, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin

standartlarının Azərbaycan Respublikası ərazisində tətbiqi Qaydaları"na uyğun iş aparılmasına dair;

10.4. dövlət standartlarının, o cümlədən ilkin dövlət standartlarının ləğv edilməsinə dair.

11. Milli standartlaşdırma qurumu tərəfindən yoxlamanın nəticələrinə dair təqdim edilmiş təkliflər əsaslı hesab olunmadıqda, onun qəbulundan imtina edilir və bu barədə aidiyyəti standartlaşdırma subyektinə 5 (beş) iş günü müddətində əsaslandırılmış məlumat verilir.

12. Normativ sənədin ləğv edilməsinə dair qərar 2 (iki) iş günü müddətində milli standartlaşdırma qurumunun rəsmi internet saytında dərc olunur.

13. Texniki şərtlərin yoxlanılması milli standartlaşdırma qurumu tərəfindən həyata keçirilir.

14. Milli standartlaşdırma qurumunun texniki şərtlərdə dəyişiklik və ya onun ləğv edilməsinə, habelə yeni texniki şərtin qəbuluna dair təklifi məqsədəuyğun hesab edildiyi təqdirdə 5 (beş) iş günü müddətində mövcud texniki şərtin qüvvədən düşməsinə dair qurum tərəfindən qərar qəbul edilir və bu barədə aidiyyəti təsərrüfat subyektinə məlumat verilir.

15. Milli standartlaşdırma qurumu tərəfindən yoxlamanın nəticələri barədə bu Qaydanın 10-cu hissəsinə uyğun qəbul edilmiş qərar 5 (beş) iş günü müddətində qurumun rəsmi internet saytında yerləşdirilir.

16. Milli standartlaşdırma qurumunun aparılan yoxlamalara dair bu Qaydanın 10-cu hissəsinə uyğun qəbul etdiyi qərar texniki komitələrin iş planlarının tərtibi, onlarda dəyişikliklərin və əlavələrin edilməsi zamanı nəzərə alınır.

______________